

Kənan Hacı

# Hacı İsgəndər

Roman

(əvvəli ötən sayımızda)

## Müəllifdən

*1918-ci ildə Qafqaz İslam Ordusu Nuru Paşanın komandanlığı altında Azərbaycanın azadlığı uğrunda savaşanda Hacı İsgəndər özünümüdafiə batalyonu yaradaraq ermənilərə qarşı döyüşüb misilsiz fədakarlıq göstərərək Nuru Paşa tərəfindən "Xalq Qəhrəmanı" ordeni ilə təltif edilib. Bolşeviklər hakimiyyətə gəldikdən sonra Hacı İsgəndər daim təqib altında olub. Onu ölümdən o dövrdə Azərbaycana rəhbərlik etmiş Ruhulla Axundov xilas edib. 1937-ci il repressiyası zamanı Ruhulla Axundovla birlikdə Hacı İsgəndər də həbs edilib, həbsdə olduğu müddətdə ona erməni müstəntiqlər tərəfindən amansız işgəncələr verilib. Ağır işgəncələrə dözməyən Hacı İsgəndər həbsxanada vəfat etsə də, onun meyitini ailəsinə verməyiblər. Hacı İsgəndər məzarı olmayan qəhrəmanlarımızdandır. "Hacı İsgəndər" romanı bu böyük türk kişisinin həyat və döyüş yolundan bəhs edir və bu mövzuda yazılan ilk romandır.*

*Hələ uzun illər bundan öncə Buzovna qəsəbəsinin axundu, ilahiyyatçı alim, şair Hacı Soltan Əlizadənin "Azərbaycan dərvişləri və rövzəxanları" kitabında Hacı İsgəndər haqqında məlumata rast gəlmişdim. O zamandan fövqəladə iradəyə, qəhrəmanlıq xüsusiyyətlərinə malik olan bu şəxsiyyətin ömür yolu diqqətimi çəkmişdir. Nə vaxtsa onun haqqında irihəcmli əsər yazacağımı düşünmürdüm. Sonrakı illərdə onunla bağlı xeyli maraqlı faktlar əldə etdim və Hacı İsgəndərin Cümhuriyyət tariximizdə müstəsna rolu, igidliyi, mərdliyi, Nuru Paşa kimi bir sərkərdənin rəğbətini qazanması və faciəli taleyi məni bu əsəri yazmağa sövq etdi. Əlbəttə, bu əsər yazılmazdan öncə Hacı Soltanın təşəbbüsü ilə onun yaşadığı evin qarşısına xatirə lövhəsi vurulub, televiziya verilişlərində haqqında süjetlər gedib, tədbirlər keçirilib. Hacı İsgəndərin geniş xalq kütləsinə tanıdılmasında onun böyük xidmətləri olub. Bu romanın yazılması da Hacı İsgəndərin adının yaddaşlarda qalması üçün növbəti bir təşəbbüsdür. Düşünürəm ki, bu cür şəxsiyyətlər hər zaman xatırlanmalı, onların keçdiyi ömür yolu gələcək nəsillər üçün örnək olmalıdır. Əsəri yazarkən Cümhuriyyət tariximizlə bağlı çoxlu sayda kitablar oxudum, arxiv materiallarıyla tanış oldum, bu da mənə romanı yazmaqda yardımçı oldu. Bu roman tarixi sənədlər əsasında yazılsa da, hər halda bədii əsərdir və yazıçı təxəyyülündən geniş istifadə olunub.*

*Kitabın araya-ərsəyə gəlməsində böyük əməyi olan həyat yoldaşım, filologiya üzrə fəlsəfə doktoru İlhamə Hacıyevaya, Qafqaz Müsəlmanları İdarəsinin Xəzər rayonu üzrə qazisi, tədqiqatçı alim Hacı Soltan Əlizadəyə, Azərbaycan Yazıçılar Birliyinin Xəzər bölməsinin sədri, şair-qəzəlxan Arif Buzovnalıya xüsusi təşəkkürlərimi bildirirəm!*

***Nurulla bağırdı:***

***-Tökün silahları!***

***Quldurlar tüfəng, tapança, xəncər və patronlarını meydanda qalaqladılar. Baxdılar ki, Nəriman yoxdur, o, qarışıqlıqda aradan çıxmışdı.***

***Qalib pəhləvan məğlubun enli kəmərindən yapışıb dik qaldırdı və ayaq üstə qoydu:***

***-İndi sən ver gəlsin.***

***Nurulla kəkələyə-kəkələyə soruşdu:***

***-Nəyi?***

***-Silahıvu deyirəm.***

***Quldurbaşı mauzerini kəmərqarışıq açıb Hacı İsgəndərin ayaqları altına atdı. Bayaqdan gizlənərək onlara nəzarət edən Hacı İsgəndərin dəstəsi meydana daxil oldular, silahları faytonlara yüklədilər. Bu silahlar özünümüdafiə dəstəsinin döyüşçülərinə paylanacaqdı. Hacı İsgəndər pərt olmuş Nurullaya yaxınlaşdı:***

***-Qalan silahları harda gizlətmisən?***

***-Gedək göstərim.***

Nurulla onları cığırla aparıb qayaların dibindəki böyük çalanı göstərdi. Quldurların kasıb camaatdan soyub-taladığı qızıllar, pullar, müxtəlif qiymətli əşyalar və silahlar burda saxlanılırdı. Hacı İsgəndərin göstərişi ilə bunların hamısı müsadirə olundu. Quldurbaşı cəzalandırılıcağını gözləyirdi, amma gözlədiyinin əksinə olaraq Hacı İsgəndər sonuncu dəfə ona şans verdi:

-Nurulla, səni azad edirəm, qayıt öz kəndinə, ailənin yanına. Bir də belə işlərlə məşğul olsan, məndən aman gözləmə!

Nurulla yoluq cücəyə dönmüşdü, elə bil bir az bundan öncə şirə, pələngə dönən o deyildi. Zarıldadı:

-Hacı, qələt eləmişəm atabatamnan. Bir də belə işlər görmərəm.

Hacı İsgəndər başının dəstəsinə qayıtmağı işarə elədi.

## VII Fəsil

*Ürəyimdə daha yox qönçə dodaqlar dərdi...*

**Abbas Səhhət**

Hacının evi hər gün adamlarla dolub-daşırdı, məsləhət almağa gələn kim, onun dəstəsinə könüllü yazılmağa gələn kim, şəhərdən müxtəlif xəbərlər gətirən kim. Hacının çöhrəsində nəsə ciddi bir səksəkə yurd salmışdı, içindəki təlatümlər onu olduğundan da qayğılı göstərirdi. O, hansısa fikrin əsiri olub qalmışdı, bilmirdi fikrini xanımına necə desin. Ağlasığmaz bir fikir idi, amma Hacı günlərdən bəri bu barədə düşünüb-daşınmış, başqa çıxış yolu tapa bilməmişdi. Axırda Məsmə xanıma gözüylə işarə elədi ki, arxa otağa keçsin. Məsmə xanım nəhayət, ərinin dilə gələcəyindən bir azca sevinən kimi oldu. O, ərini yaxşı tanıyırdı, bircə baxışından, hansısa bir hərəkətindən Hacının niyyətini oxuya bilirdi. İndi də anlamışdı ki, Hacı nəsə mühüm bir qərara gəlib və o qərarı dilə gətirməkdə çətinlik çəkir. Ölüm hamıyla eyni məsafədə dayanmışdı, qadına-kişiyə, böyüyə-kiçiyə fərq qoymurdu. Təhlükə qılınc kimi hər kəsin başı üstündə idi. Onsuz da qaranlıq olan otaqda pəncərələr bağlı olduğundan zülmət dördkünc şəklə düşmüşdü. Qapı açılanda zülmətin forması pozuldu, qaranlıq çölə dağıldı. Küncdə uşaqlar yatmışdı. Rütubət, nəmişlik otağın havasını ağırlaşdırmışdı. Hacı pəncərələrdən birinə doğru irəlilədi və qalın pərdəni çəkdi. Alatoranlıqda gözünə bir araba dəydi, arabanın yanında bir keçi otlayırdı, bir qədər aralıda bir-iki toyuq yerdə dən axtarırdı, uzaqda müəzzinin azan səsi eşidilirdi, o, müsəlmanları şam namazına səsləyirdi. Çevrilib uşaqlara baxdı, onlar dünyadan xəbərsiz mışıl-mışıl yatırdılar. Pıçıltıyla arvadını yanına çağırdı:

-Məsmə, vəziyyət çox ağırdır. Ermənilər həyasızlaşıblar, arvad-uşaq bilmirlər, hamını gülləyə tuturlar. Gör sənə nə deyirəm, görsəniz ki, biz məğlub olmuşuq, o kafirlərə imkan verməyin ki, sizə yaxın düşsünlər, kəndin bütün qız-gəlinlərinə də mənim tapşırığımı çatdır. Əli ayağının arxasındakı qayalıqlara toplaşın, "Ya İmam Əli, sən özün dadımıza yetiş!"- deyə dua edin. Əgər ermənilər bizə qalib gəlsələr, düşmənə təslim olmayın! Hamınız özünüzü qayadan atarsınız! Eşidirsən?! Hamınız!

***Məsmə xanım ağlamsınaraq örpəyinin ucunu ağzına sıxdı və Hacı İsgəndərin üzünə baxdı. Onun üzü daş kimi idi, bu sifətdə heç bir ifadə yox idi. Məsmə xanım ərini heç vaxt belə görməmişdi. Uzun illər öncə ilk dəfə onun gözlərinə baxanda bu gözlərdəki qətiyyət, özünəinam və məğrurluq onu cəlb eləmişdi. Beləcə, qəlb ilə göz arasında bir eşq macərası başlanmışdı. Çox sonralar qəlb gözə deyəcəkdi:***

-Məni bu çəkilməz dərdə sürükləyən sən oldun. Səfanı sən sürdün, cəfanı mən çəkdim. Nemət sənin, zəhmət mənim oldu. Sən sevinərkən, qayğılanan mən oldum. Baxışların məni əhatə etdikcə dərdlərimi çoxaltdın. Sən əmrlərinə itaət edilən hökmdar oldun, mən sənin təbəən oldum. Sən əmir, mən əsir oldum. Məlik ikən məni məmlük etdin. Ey göz! Sən ikisən, mən birəm. İki adamın bir nəfərə hücum edib onu məğlub etməsi ədalətdəndirmi?!




Gözlər bu sözlərin qarşılığında belə cavab verəcəkdi:

-Gerçək budur ki, gözlər kor olmaz, amma sinələrdəki qəlblər kor olar.

Məsmə xanımın iki gözü iki çeşmə olub qaynadı, yanağı boyu axdı. Qarşısındakı daş sifətdə bir canlanma əmələ gəldi, üz cizgiləri yumşaldı. İsgəndərin saqqalı titrədi, övrətinin boynunu qucaqlayıb onu köksünə sıxdı. Məsmə xanımın hıçqırıqları bu tunc sinəni isitdi...

## VIII fəsil

*Ey türk, keçmişlərindən ibrət al, hələ vücudun sağlam ikən, yaşamağa istedadın var ikən, fürsət əldə ikən əsl vücudunu tanı, qədrini anla.*

**Ömər Faiq Nemanzadə**

Nağı bəygil qatarla Konyadan Karahisara gəldilər. Stansiyada qatardan düşüb bir qədər şəhəri gəzdilər. Qarşılarına kiçik bazar çıxdı, Ömər Faiq piştaxtaya düzülmüş əncirləri görüncə satıcıya yaxınlaşdı. Nağı bəylə Hüsaməddin bəy də yaxınlaşdılar.

Ömər Faiq: - "Bakı üçün darıxdım. Gəlin bu əncirdən alaq" – dedi. Satıcı onların yabançı olduğunu anındaca hiss elədi.

-Abim, nə qədər çəkim?

-Bir az çəkin, – deyə Nağı bəy qeyri-müəyyən çəki dedi.

Onlar türk pulunun növlərini tanımırdılar. Baqqal Nağı bəyin əlindəki pulu göstərib dedi:

-Baxın, bu kağız lirə beş məcidiyyədir. (Türkiyədə iyirmi quruşluq gümüş pul).

Baqqal pulu Nağı bəydən alıb ona dörd məcidiyyə qaytardı.

-Əncirin parası bir məcidiyyə edir, bu da pulun artığı.

Onlar yol gedə-gedə ənciri acgözlüklə yeyirdilər, sanki əncirdən Bakının ətrini, qoxusunu alırdılar. Bakıdan ayrıldıqları yarım ay olsa da möhkəm qəribsəmişdilər. Bakı tarixin qəlbi kimi döyünürdü, bu qəlb hər tərəfdən oxlara nişangah olmuşdu. Ömər Faiqlə Nağı bəy qardaş ölkədən yardım istəməyə gəlmişdi. Hadisələrin necə cərəyan edəcəyini heç kəs bilmirdi. İstanbula – Heydər Paşa stansiyasına çatanda bir tərəfdən şəhərin əzəməti önündə heyranlıq hissi keçirirdilər, digər tərəfdən isə ürəkləri nigarançılıq içində qovrulurdu. Necə qarşılanacaqlarından, onların istəyinə nə cavab veriləcəyindən xəbərsiz idilər. Deyilənə görə, hələ bir kimsə İstanbulda xəyal qırıqlığına uğramayıb. İstanbulun küçələrindən iki dərviş keçib ki, onlar hələ də tarixin yaddaşında qalır. Osmanlı dönəmində Bəkri Mustafa, Cümhuriyyət dönəmində Neyzən Tevfik. İkisi də evi çiynində olan, diyarbədiyar dolaşan qələndər olublar. Nağı bəylə Ömər Faiq də İstanbul küçələrində özlərini dərviş kimi hiss edirdilər. Onlar dünya nemətlərindən imtina etmişdilər, onların gözündə millət adlı əziz və müqəddəs bir nemət vardı ki, indi o nemət təhlükə altında idi. Şeyxlər xurma ilə günü başa vurduğu kimi onlar da əncirlə insana xas olan aclıq hissini dəf edirdilər. Məqsədlərinə yetməyincə bərxudar ola bilməzdilər.Onların geyimi dərvişlikdən min fərsəx uzaq idi, hər ikisi müasir Avropa stilində geyinmişdilər. Amma insanın zatında dərvişlik yoxdursa, istəyir xirqə geyinsin, başına lap tatar külahı qoysun, o şəxs dərviş olamaz. Nağı bəylə Ömər Faiq əfəndi millət aşiqi idilər, xalqın azadlığı üçün çiləyə girmişdilər.

***Məxləs, onlar məqsədlərinə yetmək üzrəydilər. Mehmanxanada rahatlanıb dinclərini alandan sonra ümumi işlər müdiri Əsəd bəy qapıda göründü. O, Azərbaycandan gələn elçilərə şad xəbər gətirmişdi. Ömər Faiq yataqda dirsəklənib qəzet oxuyurdu, Əsəd bəy otağa daxil olanda dərhal yerindən qalxdı, içini bir həyəcan dalğası bürüdü. Nağı bəysə həyəcanını boğmağı bacarırdı. Əsəd bəy elçilərlə salamlaşandan sonra:***

***-Sabah axşam saat beşdə sizi Babi Alidə Baş Nazir həzrətləri qəbul edəcək. Hazırlaşın,- dedi və getdi.***

***Ömər Faiq Əfəndi ilə Nağı bəy bir-birnə baxdılar. Bu baxışlarda hər şeyin yaxşı olacağına möhkəm bir inam var idi. Nağı bəy düşünürdü: "Deməmk sabah axşam Tələt Paşa ilə görüşərək vəzifəmi yerinə yetirəcəyəm".***

(davamı gələn sayımızda)